AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun 2014-cü ildə keçirilmiş**
**7-ci "Mobillik qrantı" müsabiqəsinin**
**(EİF-Mob-7-2014-8(23))**
**qalibi olmuş layihə üzrə**

# ELMİ-TEXNİKİ HESABAT

Layihənin nömrəsi: **EİF-Mob-7-2014-8(23)-06/05/5-M-01**

Layihənin adı: **Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqəyə dair**

Müqavilənin imzalanma tarixi: **12 may 2015-ci il**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Gözəlova Yeganə Hafis qızı**

Layihənin yerinə yetirilmə müddəti: **21 gün**

Layihənin başlama və bitmə tarixi: **18 may 2015-ci il- 30 iyun 2015-ci il**

Qrantın məbləği: **5500 manat**

| | | |
|---|---|---|
| 1. | *Qısamüddətli elmi təcrübənin keçirildiyi ölkə və şəhər* | Türkiyə, İstanbul |
| 2. | *Qısamüddətli elmi təcrübənin keçirildiyi təşkilatın və ya onun struktur bölməsinin tam rəsmi adı* | Türkiye Cumhuriyeti Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı |
| 3. | *Təcrübəkeçmənin baş tutduğu* | Uğur Ünal |

| | | |
|---|---|---|
| | *təşkilat rəhbərinin adı* | |
| 4. | *Təcrübəkeçmənin baş tutduğu təşkilatda təcrübəkeçməyə məsul şəxsin adı* | Uğur Ünal |
| 5. | *Layihənin icra müddəti (dəqiq gediş-gəliş vaxtı dəqiq göstərilməli)* | 03.06.2015-24.06.2015 |
| 6. | *Təcrübəkeçmədən əldə edilən elmi nəticələr, onların yenilik dərəcəsi, təcrübəkeçmənin elmi və praktiki əhəmiyyəti* | Birinci Dünya müharibəsi illərində erməni komitələrinin Osmanlı imperiyasında və Azərbaycanda fəallaşması təsadüfi deyildi və hər iki ölkə ərazisində güclənən erməni terroru və genişlənən erməni təbliğatı bir-birilə əlaqəli idi. Bu əlaqənin aşkara çıxarılması və eyni mərkəzdən idarə edilməsinin sübut olunması elmi və siyasi aktuallıq kəsb edir.<br><br>Məsələnin elmi aktuallığı ilk növbədə qondarma "erməni soyqırımı"nın gerçək mahiyyətinin terrorçuluq və işğalçılıq olması faktına bağlıdır. 1915-ci ildə Osmanlı imperiyasında baş vermiş təhcir olayında erməni təbəələrinin dövlətə qarşı xəyanətkar siyasəti gizlənirdi. Üstəlik, ermənilər özləri həmin illərdə türk-müsəlman əhaliyə, o cümlədən Osmanlı imperiyasının Anadolu torpaqlarında və Azərbaycanda (özəlliklə Qarabağda) soyqırımı siyasəti həyata keçirmişlər.<br><br>Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamların tarixi istər Vətən, istərsə də Türkiyə tarixşünaslığında ən çox müraciət olunan məsələlərdəndir. Bu problemin araşdırılması məqsədilə xeyli sayda arxiv materialları tədqiqata cəlb edilmişdir. Bu arxivlərin içərisində Azərbaycanın və Türkiyənin arxivləri üstünlük təşkil edir. Bu araşdırmalar nəticəsində son 20 ildə qiymətli tədqiqat əsərləri yazılmış və sənəd topluları dərc edilmişdir (Qarabağ: suallar və faktlar. Bakı, "Qismət", 2005; Y.M.Mahmudov. K.Şükürov. Qarabağ. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2009; Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, "Təhsil", 2009; İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Çaşıoğlu, 2009; Azmi Süslü. Ermeniler ve 1915 yılı Tehcir Olayı. Van,1991; Osmanlı arşiv belgelerinde Nahçıvan. |

İstanbul, 2011).

Bununla yanaşı, həmin arxivlərdəki materialların böyük bir hissəsi hələ də öz tədiqatçısını gözləyir. Özəlliklə Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqəni aşkara çıxarmaq üçün erməni komitələrinin fəaliyyətini əks etdirən sənədlərin aşkar edilməsi zəruridir. Bu sənədlərin aşkar edilib elmi ictimaiyyətə çatdırılması və Azərbaycanda fəallaşması təsadüfi deyildi və hər iki ölkə ərazisində güclənən erməni terroru və genişlənən erməni təbliğatı bir-birilə əlaqəli olduğunu, vahid mərkəzdən idarə olunduğunu sübut edə biləcək.

Türkiyə Cümhuriyyətinin arxivlərində toplanmış materiallar bu siyasətin aşkara çıxarılmasına xidmət edir. Məsələnin siyasi aktuallığı isə müasir dövrdə bəzi Qərb dövlətlərinin tarixi saxtalaşdırmaq cəhdlərinə elmi cavab vermək üçün T.C. Cumhurbaşkanlığı Başbakanlık Osmanlı Arşivində toplanan materialların dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədardır.

Layihənin məqsədi 1915-1918-ci illərdə Osmanlı imperiyasının Bitlis, Van, Elazığ, Muş, Diyarbəkir, Ərzurum bölgələrində baş verən erməni terroru nümunəsində Birinci Dünya müharibəsi illərində erməni komitələrinin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqəni araşdırmaq olmuşdur. Araşdırmada qarşıya qoyulan məsələlər: Birinci Dünya müharibəsi illərində Osmanlı imperiyasında mövcu olan erməni komitələrinin fəaliyyəti, Bitlis, Van, Elazığ, Muş, Diyarbəkir, Ərzurum bölgələrində baş verən erməni terroru ilə bağlı materialların toplanması; Yuxarıda göstərilən materiallar əsasında Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqənin araşdırılması olmuşdur.

Təcrübəkeçmə gedişində Başbakanlık Osmanlı Arşivindən 900-dən çox arxiv sənədi toplanmışdır. Onların arasında Hariciye Nezareti Siyasi Kısım, Dahiliye Nezareti Siyasi Kısım, Dahiliye Nezareti Muhaberat-ı Umumiye dairesi, Dahiliye Nezareti,

Emniyet-i Umûmiye Müdüriyeti, Dahiliye Nezareti, Kalem-i Mahsûs Müdüriyeti, Dahiliye Nezareti, Sifre Kalemi, Sadaret Mektubi Muhimme bölmələrindəki sənədlər üstünlük təşkil edir. Bu sənədlərin böyük bir qismi Osmanlıca, bir qismi isə Avropa dillərindədir.

Araşdırma gedişində aşağıdakı nəticələr əldə edilmişdir: Birinci Dünya müharibəsi illərində Osmanlı imperiyasında mövcud olan erməni komitələrinin fəaliyyəti, Bitlis, Van, Elazığ, Muş, Diyarbəkir, Ərzurum bölgələrində baş verən erməni terroru ilə bağlı toplanmış materiallar göstərir ki, Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadoluda və Qarabağda törətdikləri qətliamlar arasında təşkilati əlaqə mövcud olmuşdur. Bu əlaqə erməni qətliamlarının pərakəndə deyil, sistemli şəkildə həyata keçirildiyini və Anadoluda və Azərbaycanda türk-müsəlman əhalinin fiziki məhvini məqsəd olaraq qarşıya qoyduğunu bir daha sübut edir. Bu sənədlər ermənilərin törətdikləri qətliamların iri dövlətlər tərəfindən, xüsusilə Rusiya və Fransa tərəfindən böyük dəstək görmüşdür.

900-dən çox sənəddə toplanmış materiallar 1914-1918-ci illərdə istər Şərqi Anadolunun, istərsə də Azərbaycanın (özəlliklə Qarabağın) türk-müsəlman əhalisinin ermənilər tərəfindən böyük bir soyqırımına məruz qaldığını göstərir. Şərqi Anadoluda və Azərbaycan ərazisində aparılan araşdırmalar nəticəsində toplu məzarlıqlarda aşkar olunan erməni qətllərinin səbəbindən yüz minlərcə türk-müsəlman əhalinin qalıqlarının rəsmi tərəfi məhz bu sənədlərdir.

Bu sənədlərdə, həmçinin, Rusiyanın Osmanlı ermənilərinə göstərdiyi himayə, o cümlədən ermənilərin silahlandırılması, erməni fədailərinin xüsusi düşərgələrdə hərbi məşqlər keçməsi, köç edən ermənilərin Rusiya ərazisində (dəqiq desək, Azərbaycan ərazisində) yerləşdirilməsi, yerləşdirilən ermənilərin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı talançılıq və soyqırımı siyasəti, Rusiyanın erməni məsələsi ilə əlaqədar diplomatik fəaliyyəti də əksini tapmışdır.

Təcrübəkeçmədə əldə edilən nəticələr və gətirilən materiallar, bu materialların təhlilinin elmi və praktik əhəmiyyəti böyükdür. İlk növbədə, bu, Birinci Dünya

| | | |
|---|---|---|
| | | müharibəsi illərində Şərqi Anadolunun və Azərbaycanın hərbi-siyasi tarixinin öyrənilməsi üçün zəruridir. Digər tərəfdən,<br><br>Təcrübəkeçmədən əldə edilən nəticələrin praktik əhəmiyyəti də böyükdür. Belə ki, əldə edilən bu sənədlər, Azərbaycanda Birinci Dünya müharibəsi illərində baş verən hərbi-siyasi hadisələri, 1918-ci il mart soyqırımınının tarixinin həqiqətlərini aşkara çıxarır, eyni zamanda, ermənilərin uydurma 1915-ci il soyqırımının da nə qədər mənasız və tarixi gerçəkliyə uyğun olmayan yalan olduğunu, erməni iddialarının heç bir əsasının olmadığını sübut edir. Bu materiallardan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi ilə bağlı monoqrafiyaların və elmi məqalələrin yazılmasında, beynəlxalq konfrans və simpoziumların keçirilməsində, stendlərin hazırlanmasında, broşürlərin çap edilməsində, televiziya və fradio proqramlarının yayımında istifadə edilə bilər. Təcrübəküçmə gedişində əldə edilən materialların elmi ictimaiyyətə çatdırılması zərurirəti nəzərə alınaraq onların faksimilesinin nəşr olunması məqsədəuyğundur. |
| 7. | *Təcrübəkeçmə zamanı istifadə olunmuş üsul və yanaşmalar* | Arxiv materiallarının müqayisəli təhlili; mənbələrə tənqidi yanaşma; mənbə materiallarının elmi analizi |
| 8. | *Təcrübəkeçmə zamanı əldə olunmuş nəticələrin gözlənilən tətbiq sahələri (konkret olaraq qeyd etməli)* | Ümumi tarix, Azərbaycan tarixi, Beynəlxalq münasibətlər tarixi |

**Layihə rəhbərinin imzası** ____________

**Tarix** 25.06.2015